**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, bu paket-layihələr, bilirsiniz ki, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında cənab Prezidentin müvafiq fərmanının icrası ilə bağlı hazırlanmışdır. Birinci, ikinci oxunuşlarda, komitədə çox geniş müzakirə olunubdur. Bununla bağlı geniş ictimai müzakirələr aparılıb. İlk növbədə ixtisaslaşmış məhkəmələrin yaradılmasından söhbət gedir. Biz növbəti mərhələlərdə, o cümlədən komitə üzvləri arasında yaranmış təkliflər, iradlarla bağlı bütün məsələləri işçi qaydasında həll etmişik. Ona görə hörmətli həmkarlarımdan üçüncü oxunuşda səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 4-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 5-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 6-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, gündəliyin 7-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 8-ci məsələsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir. Bu da üçüncü oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** İnzibati Xətalar Məcəlləsinə maliyyə bazarlarına nəzarət orqanının haqlarının ödənilməməsi ilə

bağlı məsuliyyət nəzərdə tutan maddə əlavə olunur. İkinci oxunuşda  bu məsələ ilə bağlı əlavə təkliflər daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

Gündəliyin 9-cu məsələsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Mülki Məcəlləyə təklif edilən dəyişiklik “Sığorta fəaliyyəti haqqında” Qanunun icrası ilə bağlıdır. İkinci oxunuşda əlavə və təkliflər daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Üçüncü oxunuşdur, başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti 4 məsələ, yəni 10–13-cü məsələlər bir zərfdə daxil olmuşdur.  10-cu məsələ Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun. Üçüncü oxunuşdur.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hər 4 məsələ Cinayət Məcəlləsinə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı etdiyimiz dəyişikliklərdən, təxminən 300 dəyişiklikdən irəli gəlir. Yəni artıq digər qanunlar da yenidən uyğunlaşdırılır. Müzakirələr zamanı komitə üzvü Tahir müəllim Kərimlinin bir neçə təklifi olmuşdur. Komitənin iclasında, yəni işçi qaydasında o məsələləri həll etmişik və hər hansı bir mübahisəli məsələ yoxdur. Ona görə uyğunlaşdırma xarakterli olduğuna görə hər 4 layihənin üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 10-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 11-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 12-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 13-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 14-cü məsələsi – "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə buyursun Arif Rəhimzadə.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Bu layihəyə nə birinci, nə də ikinci oxunuşda heç bir düzəliş, əlavə edilməyib. Xahiş edirəm, səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Bununla üçüncü oxunuşlar artıq bitdi. İndi 15-ci məsələyə keçirik. "Dövlət rüsumu haqqında" Qanunda dəyişikliklər edilməsi barədə buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, adıçəkilən qanun layihəsi xidməti səfərlərin təşkili ilə bağlı prosedurların asanlaşdırılması və bu məqsədilə xarici ölkələrin səfirliklərinə və konsulluqlarına viza rəsmiləşdirilməsi üçün notanın verilməsinə görə dövlət rüsumunun ləğvini nəzərdə tutur. Ona görə millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 16-cı məsələ "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi satınalma prosedurlarında iştirak edən nümayəndələrin vergi öhdəlikləri ilə bağlı tələbləri daha da sərtləşdirir. Hazırda satınalmada iştirak edənlərin vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərinin olmaması nəzərdə tutulurdusa, təklif olunan qaydaya əsasən həm də son bir il ərzində vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması tələbi də nəzərdə tutulur. Bu da satınalma prosedurlarında iştirak etmək istəyənlərin vergiləri vaxtında və tam ödəməsinə məsuliyyətini artırmış olur. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 16-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti iki məsələ də ikinci oxunuşdur. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Qa-

nunda dəyişiklik edilməsi barədə buyursun Ziyad Səmədzadə. İkinci oxunuşdur.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, bilirsiniz ki, Dövlət büdcəsi haqqında Qanunda dəyişikliklər nəzərdə tutulmuşdur. Bu dəyişikliklər də ölkədə sosial mühitin daha da yaxşılaşmasına xidmət edir. İkinci oxunuşla əlaqədar olaraq millət vəkillərindən təkliflər daxil olmamışdır. Ona görə də qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bir də, ikinci oxunuş olduğu üçün, xahiş edirəm, qanun layihəsinə əsas kimi də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| --- | --- |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Növbəti 18-ci məsələ “Sosial təminatı və müdafiəni

həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Qanuna dəyişiklik barədədir. Xahiş edirəm, qanun layihəsinə ilk növbədə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Buyurun, Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Minnətdaram, Oqtay müəllim. Bu məsələ birinci oxunuşda müzakirə olunanda deputat həmkarlarımız tərəfindən birmənalı müsbət qəbul olunub. Büdcədə sosial müdafiə məqsədlərinə ayrılan vəsait daha 200 milyon manat civarında artırılıb. Bu, əlbəttə, əhalinin sosial müdafiəsinin güclənməsinə xidmət edir. Bir daha demək istəyirəm ki, bu məbləğ sosial müdafiə qurumları tərəfindən sosial sığorta hesabına cəlb olunmuş vəsait hesabına yönələn məbləğdir. Deputat həmkarlarımı buna səs verməyə çağırıram.

**Sədrlik edən**. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 19-cu məsələ "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Bu da ikinci oxunuşdur. Ona görə xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Hörmətli həmkarlar, bu layihə də cənab Prezidentin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının icrası ilə bağlıdır. Məqsəd hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılmasıdır. Layihə komitədə və plenar iclasda dəstəklənmişdir. İkinci oxunuşda da səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Növbəti 20-ci məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Bu da ikinci oxunuşdur. Xahiş edirəm, ilk növbədə qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

İndi buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsinin birinci oxunuşundan sonra müzakirələr prosesində ikinci oxunuşla əlaqədar təkliflər daxil olmamışdır. Ona görə də millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən**. Başqa təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 21-ci məsələsi "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. İkinci oxunuşdur. Xahiş edirəm, ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, təklif olunan qanun layihəsi İpoteka və Kredit Zəmanət Fondunun satın aldığı yaşayış sahələrinə "Dövlət satınalmaları haqqında" Qanunun tətbiq edilməməsi məqsədi daşıyır. Bu da yaşayış sahələrinin daha operativ əldə olunmasına xidmət edəcəkdir. Məlumat üçün bildirmək istəyirəm ki, birinci oxunuşdan sonra millət vəkillərindən qanun layihəsi ilə əlaqədar təklif daxil olmamışdır. Ona görə də millət vəkillərindən bu qanun layihəsini də dəstəkləmələrini xahiş edərdim.

**Sədrlik edən**. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---:|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 22-ci məsələ "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli**. Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım, bu layihə birinci oxunuşda həm deputat həmkarlarımız tərəfindən, həm də cəmiyyət tərəfindən yüksək ləyaqətlə, diqqətlə qəbul olundu. Xalqımız buna böyük qiymət verdi. Çox nadir hallardan biridir ki, 5–6 ay müddətində minimum əmək haqqı iki dəfə artırılsın və 116 manatdan 200 manata çatdırılsın. Bu, birinci göstəricidir.

İkinci, "Əmək pensiyaları haqqında" Qanunun 29.1-ci maddəsinə də bir əlavə olunub ki, bu da indeksləşdirmə ilə bağlıdır və pensiyaların artırılmasına xidmət edir. Deputat həmkarlarımı layihəyə səs verməyə çağırıram.

**Sədrlik edən**. Çox sağ olun. Birinci, xahiş edirəm, layihəyə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---:|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi, xahiş edirəm, layihəyə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 23-cü məsələ "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli.** Bildiyiniz kimi, 2018-ci ilin büdcəsində müəyyən qədər vəsait qalmışdır. Biz bu səsvermə ilə həmin fondda olan vəsaitin 15 milyonunu İşsizlikdən sığorta fonduna keçiririk. Bunun da əsas məqsədi vəsaitin özünüməşğulluğa yönəldilməsidir. Düşünürəm ki, bu, sosial müdafiənin güclənməsində böyük rol oynayacaq. Ona görə deputat həmkarlarımı buna səs verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, əvvəl qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

24-cü məsələ Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu da ikinci oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Mənzil Məcəlləsinə təklif edilən bu dəyişiklik dövlət mənzil fondunun yaşayış sahələrinin özəlləşdirilməsi ilə bağlı bir əlavəni nəzərdə tutur. Birinci oxunuş zamanı təkliflər daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, əvvəl qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 25-ci məsələ "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. İkinci oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Hörmətli həmkarlar, "Yol hərəkəti haqqında" Qanuna təklif edilən bu iki dəyişiklik beynəlxalq standartlara uyğun olaraq yolayrıcında sarı kəsişmə toru nişanının və daim sağa dönmə nişanının bizim qanunvericilikdə öz əksini tapmasıdır. Komitədə də Bakı Nəqliyyat Agentliyinin nümayəndələri ilə çox ciddi müzakirə edilmişdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa fikir yoxdursa, əvvəl qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 26-cı məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir, bu da ikinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Vergi Məcəlləsinin 164.1.34-cü maddəsinə “bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq olunmuş kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı” sözləri əlavə edilir. Kifayət qədər məqbul bir təklifdir. Çünki bu, bütövlükdə aqrar sektorun maddi-texniki bazasının möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda, müzakirələr prosesində təklif olundu ki, həmin cümləyə “kənd təsərrüfatı təyinatlı aqrotexniki xidmətlərin təmiri” sözləri də əlavə edilsin. Hörmətli Oqtay müəllim, hazırda qanunvericilik təşəbbüsü orqanı ilə danışıqlar aparılır ki, üçüncü oxunuşa qədər biz bu məsələni tənzimləyək. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs

vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Sizə söylədiyim kimi, 27-ci məsələ "Bank olmayan kredit təşkilatları haqqında" Qanunda dəyişiklik haqqındadır. Buna gələcək iclasımızda baxılacaq. Ona görə gündəliyin 28-ci məsələsinə keçirik. Bu da ikinci oxunuşdur, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin

kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədədir. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Gündəliyin 28-ci və 29-cu məsələlərində müzakirəyə təqdim olunan layihələr "Yeyinti məhsulları haqqında" Qanunda 2018-ci il 23 fevral tarixli Qanunla edilən dəyişikliyə əsasən göstərilən qanunların bir-birinə uyğunlaşdırılması məqsədi ilə hazırlanmışdır. Qanun layihələrinin mahiyyəti eyni olduğuna görə hər iki qanun layihəsi barədə məlumat vermək istəyirəm.

İkinci oxunuşda təqdim olunan bu qanun layihələri Aqrar siyasət komitəsində və Milli Məclisin plenar iclaslarında birinci oxunuşda müzakirə edilərkən hörmətli deputatlar Eldar Quliyev, Novruzəli Aslanov, İqbal Məmmədov, Aydın Hüseynov bu qanunun qəbul edilməsinin qanunvericilik baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulamış və mövcud olan qanunların bir-birinə uyğunluğunun təmin olunmasının vacibliyini qeyd etmişlər. Belə ki, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda 2018-ci il 23 fevral tarixli Qanunla edilən dəyişikliklər yuxarıda adı çəkilən qanunların da bir-birinə uyğunluğunun təmin edilməsini zəruri etmişdir.

Hörmətli deputat həmkarlarım, eyni zamanda, layihəyə dair bir sıra iradlar bildirmiş, rəy və təkliflər söyləmişlər. Həmçinin hörmətli deputat Aytən xanım Mustafazadə "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair yazılı təkliflərini Aqrar siyasət komitəsinə təqdim etmişdir. Milli Məclisin

Aqrar siyasət komitəsinin ekspert və mütəxəssislərindən ibarət işçi qrupunda irad və təkliflərə baxılmış, diqqətlə öyrənilmiş, layihə ikinci oxunuşa hazırlanarkən, əsasən, nəzərə alınmışdır.

Qanun layihələri birinci oxunuşdan sonra bir qədər təkmilləşdirilmiş, bəzi maddələr yenidən işlənilmişdir. Belə ki, layihələrdə adı çəkilən qanunların 33 bəndində dəqiqləşdirmə aparılaraq qanunların bir-birinə uyğunluğu tam təmin edilmiş, bir çox sözlərin, durğu işarələrinin yazılışında buraxılan səhvlər aradan qaldırılmış, bəzi maddələr subyektiv fikrin yaranmaması üçün daha aydın və anlaşılan redaksiyada verilmişdir.

Gündəliyin 28-ci məsələsindəki qanun layihəsində "Üzümçülük və şərabçılıq haqqında", eləcə də "Arıçılıq haqqında" və digər qanunlarda uyğunluq tamamilə həll edilib, yerini tapıb. Mən bu maddələri sayıb vaxtınızı almaq istəmirəm. Layihəyə edilən əlavə və düzəlişlər sizə paylanmış variantda qara hərflərlə verilmişdir ki, birinci oxunuşla ikinci oxunuş arasındakı fərqləri müqayisə edə biləsiniz. Eyni zamanda, bildirirəm ki, qanun layihələrində işçi qrupu tərəfindən aparılan düzəlişlər layihənin müəllifi ilə razılaşdırılmışdır. Hesab edirəm ki, müzakirə etdiyimiz layihələr ikinci oxunuşun tələblərinə tam cavab verir və hörmətli həmkarlarımdan xahiş edərdim ki, bu qanunlara səs verək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, ikinci oxunuşdur, gündəliyin 28-ci məsələsinin əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
İndi qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Gündəliyin 29-cu məsələsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.
İndi bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 30-cu məsələ Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli.** Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım! Bu iki məcəllədə edilən dəyişiklik 2018-ci il iyunun 29-da bizim qəbul etdiyimiz "Məşğulluq haqqında" Qanuna uyğunlaşdırma məqsədi daşıyır. Birinci oxunuşda deputat həmkarlarım layihəyə bütövlükdə səs veriblər. Hesab edirəm ki, hər iki dəyişiklik əhalinin sosial müdafiəsini gücləndirməyə xidmət edir. Deputat həmkarlarımı bu layihəyə səs verməyə çağırıram.

**Sədrlik edən.** Siz Çernobılı da eyni qaydada dediniz, 32-ci məsələ ilə birgə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ona görə də adını demək lazımdır. İki qanun haqqında bir adla deyirsən.

**H.Rəcəbli.** 30-cu məsələdə 2 məcəllə ilə əlaqədar olan dəyişiklikdir, 32-ci məsələdə isə 9 qanunda edilən dəyişiklikdir. Bu da "Məşğulluq haqqında" Qanunun tətbiqi ilə bağlıdır. Burada digər ciddi dəyişiklik yoxdur. Hər iki layihəyə eyni cür baxmaq olar.

**Sədrlik edən.** Mən də ona görə deyirəm ki, belə deyəsən, aydın olsun.

Gündəliyin 30-cu məsələsi ikinci oxunuşdur. Xahiş edirəm, əvvəl əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi bütövlükdə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 32-ci məsələsi də ikinci oxunuşdur. Xahiş edirəm, əvvəl əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

32-ci məsələyə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| --- | --- |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Gündəliyin 31-ci məsələsi də ikinci oxunuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə, Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Oqtay müəllim, bu məsələ də, əslində, 30-cu və 32-ci məsələlərlə üzvi surətdə bağlıdır. Belə ki, "Məşğulluq haqqında" Qanunun tələblərinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsində sanksiyalar nəzərdə tutulur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| --- | --- |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 33-cü məsələ "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Bu da ikinci oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu layihənin işlənib hazırlanmasında məqsəd publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi ilə bağlı qaydaların təkmilləşdirilməsidir. Amma ən vacib məsələnin üzərində dayanmaq istəyirəm. Bu, ilk növbədə publik hüquqi şəxsin yalnız dövlət və bələdiyyə adından yaradılmasını nəzərdə tutur. Yəni əvvəl qanunda nəzərdə tutulmuşdu ki, publik şəxs özü də publik şəxs yarada bilər və bu, əlbəttə ki, ziddiyyət yaradırdı. Əsas, başlıca dəyişiklik bundan ibarətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi xahiş edirəm, qanun layihəsinə bütövlükdə ikinci

oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 34-cü məsələ Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Valeh Ələsgərov. İkinci oxunuşdur.

**V.Ələsgərov.** Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda müzakirənizə təqdim edilmişdir. Dəyişikliklərin edilməsində məqsəd təbii su mənbələrindən götürülən suya görə güzəşt və azadolma hallarını müəyyən etmək, su obyektlərindən yanğından mühafizə məqsədləri üçün istifadə qaydalarını təkmilləşdirməkdir. Birinci oxunuşdan sonra hər hansı bir təklif, yaxud da irad olmamışdır. Təklif edirəm, qanun layihəsinə səs verib qəbul edək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, ikinci oxunuş olduğu üçün qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. İndi qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 35-ci məsələ "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Bu da ikinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanun layihəsinə ikinci oxunuşda təkliflər daxil olmamışdır. Millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, ilk növbədə əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bugünkü gündəliyin sonuncu 36-cı məsələsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliklərlə əlaqədar olaraq millət vəkillərindən heç bir tövsiyə daxil olmamışdır. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, ikinci oxunuşda qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Qanun layihəsinə ikinci oxunuşda  münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bugünkü iclasımız sona çatdı. Amma bir şeyi nəzərinizə yetirmək  istəyirəm ki, hər belə iclasdan sonra, çox təəssüf, bəzən mediada yazırlar ki, Milli Məclis deputatlara imkan yaratmadı, çıxışlar olmadı, tez çıxış etdilər. Mən hər dəfə çıxışın əvvəlində deyirəm ki, biz artıq ikinci, üçüncü oxunuşları edirik, hamının gözü qabağında, hamıya imkan yarada-yarada iclasımızı keçiririk. Milli Məclisdəki media nümayəndələri bilirlər ki, Milli Məclisdə prosedur qaydaları necədir. Təəssüf ki, o biriləri bunlardan şou yaratmaq istəyirlər. Sonuncu iclasımız ya ayın 12-də, ya da bəlkə  bir gün sonra olacaq. Dəqiq deyiləcək. Növbədənkənar sessiyanın sonuncu iclası olacaq. Xahiş edirəm, gələn iclasda  hamımız iştirak edək.  Sağ olun.